"İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirmişdir. Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# Xalqımıza qürur hissi yaşadan sərkərdə



Müstəqil dövlətimizin qurucusu ulu öndər Heydər Əliyev torpaqlarımızın işğaldan azad olunmasını, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsini, bir milyona yaxın didərgin həmvətənimizin öz ata-baba yurduna qayıtmasını, yenidən dincliyə, firavanlığa qovuşmasını, bölgəmizə dayanıqlı sülhün gəlməsini strateji vəzifə kimi müəyyənləşdirmişdi. Bununla bağlı gördüyü işləri, planlaşdırdığı tədbirləri başa çatdırmağa ömrü vəfa etməsə də, onun siyasi varisi, layiqli davamçısı Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi, xalqın ümidlərini doğrultdu, Azərbaycanı böyük Zəfərə çatdırdı. Hər bir vətənpərvər azərbaycanlını öz ətrafında sıx birləşdirərək, qüdrətli ordusu ilə düşmənin başını, sözün həqiqi mənasında, dəmir yumruqla əzdi, onu məğlubiyyət aktını imzalamağa məcbur etdi. 44 günlük Vətən müharibəsi Azərbaycan Silahlı Qüvvələrinin hərbi gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Müasir silah və texnikalarla təchizat bu gücün mühüm tərkib hissəsi, qələbəni təmin edən ən vacib amil oldu.

Əvvəla, qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi müasir ordu yaradılmasına və onun hərbi texnikaya tələbatının ödənilməsinə xüsusi diqqət və qayğı göstərirdi. O, hələ sovet dövründə respublikaya rəhbərlik edərkən milli zabitlər nəslinin yetişdirilməsinə çalışdığı kimi, Bakıda və başqa şəhərlərdə hərbi və müdafiə təyinatlı müəssisələrin yaradılmasına da təşəbbüs göstərir, məqsədinə nail olurdu. Həmin dövrdə Azərbaycanda "Azon", "Alov", "Araz", "Robot", "Billur", "Alunit" zavodları, Elektron Hesablama Maşınları zavodu, "Ulduz", "Nord", "Kosmik tədqiqatlar" Elm-İstehsalat birlikləri, "Rabitə" Elmi-Tədqiqat İnstitutu, "KASPİ" Elmi Mərkəzi və digərləri hərbi xarakterli məhsulların istehsalı ilə məşğul olurdular. Bu, müdafiə sənayesi üzrə yüksək səviyyəli, peşəkar kadrların yetişməsinə imkan yaradırdı. Həmin dövrdə işə salınmış bir sıra zavodlar, elm-istehsalat sahələri hazırda da ölkəmizin müdafiə sənayesinin mövcud potensialının mühüm bir hissəsini təşkil edir.

Müstəqil dövlət quruculuğu dövründə ulu öndər Heydər Əliyev ərazisi düşmən işğalına məruz qalan ölkəmizin müdafiə potensialının yaradılması üçün məqsədyönlü iş aparırdı. İlk növbədə, ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşdırıldı. Silahlı Qüvvələrə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin yerli müəssisələrdə istehsalına başlanması həm ordunun ehtiyaclarının operativ qaydada ödənilməsinə, həm də ölkə iqtisadiyyatının inkişafına böyük təkan verdi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev ulu öndərin strateji xəttini uğurla davam etdirərək, müdafiə sənayesinin zamanın çağırışlarına uyğun şəkildə inkişaf etdirilməsinə və modernləşdirilməsinə xüsusi diqqət və qayğı göstərir. Məhz dövlətimizin başçısının təşəbbüsü ilə 2005-ci ildə Azərbaycan Respublikasının Müdafiə Sənayesi Nazirliyi yaradılıb, bir sıra zavodlar, istehsal sahələri, elmi-tədqiqat mərkəzləri və Aerokosmik Agentlik onun tərkibinə verilib. Bu addım ölkəmizin hərbi sənaye kompleksinin əsaslı şəkildə yenidən qurulmasına, müdafiə qüdrətinin möhkəmləndirilməsinə böyük töhfə verib. Nazirliyin 23-dən çox müəssisəsində ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. İstehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıqlar quraşdırılıb. 2200-dən çox müxtəlif təyinatlı dəzgah, 10 minlərlə cihaz, alət və tərtibatlar alınaraq istismar üçün müəssisələrə verilib. Bu gün Azərbaycanda istehsal edilən hərbi təyinatlı məhsullar dünyanın 30-dan çox ölkəsinə ixrac edilir. Düzgün aparılmış işlər nəticəsində bu il Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində ümumi istehsalın həcmi 2020-ci illə müqayisədə 10 faiz artıb, istehsal olunmuş ümumi məhsul həcminin 60 faizindən çoxu ixraca yönəldilib.

"Bugünkü dünyada güc amili əsas rol oynayır. "Kim güclüdür, o da haqlıdır" prinsipi əsas prinsipdir. Bu, reallıqdır. Biz real dünyada yaşayırıq. Əlbəttə, beynəlxalq davranış qaydaları, beynəlxalq hüquq normaları var və beynəlxalq təşkilatlar fəaliyyət göstərir. Ancaq biz bu fəaliyyətin konkret nəticələrini görmürük. Bir daha qeyd etmək istəyirəm ki, bir çox hallarda dövlətimizə, xalqımıza qarşı ədalətsizlik görürük". Bu fikirləri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsindən beş il əvvəl hərbçilər qarşısında çıxış edərkən deyib. Dövlətimizin başçısı dünyada gedən proseslərə dərindən bələd olduğu üçün Azərbaycanın hərbi gücünü ilbəil deyil, aybaay, günbəgün artırır, dünyanın ən müasir silah-sursat və hərbi texnika istehsalçıları ilə sıx əlaqələrin qurulmasına nail olur. Bunun nəticəsini biz 44 günlük Vətən müharibəsində aydın şəkildə gördük. Silahlı Qüvvələrimiz müharibənin elə ilk günlərində düşmənin hava hücumundan müdafiə qüvvələrini darmadağın edərək, Qarabağ səmasında hökmranlığı tamamilə ələ aldı. Döyüş meydanında misilsiz şücaətlər göstərən hərbçilərimiz fiziki və mənəvi cəhətdən güclü olduqları kimi, ən müasir silah-sursatdan məharətlə istifadə edirdilər.

Dövlətimizin başçısının sərkərdəlik istedadı və qüdrəti özünü ordumuzun silahlanmasında bariz şəkildə nümayiş etdirir. Ötən il dekabrın 10-da paytaxtımızın baş meydanında təşkil edilmiş Zəfər paradında ölkəmizin hərbi gücünün bir sıra elementləri, həm yerli istehsaldan olan, həm də xaricdən alınmış müasir hərbi texnika nümayiş etdirildi. Bütün dünya Azərbaycan Ordusunun arsenalının hansı silahlarla təchiz olunduğunu əyani gördü. Paradda nümayiş etdirilən silahlar dostlarımızı sevindirdi, düşmənimizin isə qorxusunu daha artırdı. İşğalçı erməni əsgərləri daşına, torpağına varvarcasına yanaşdıqları ərazilərdə fərariliyi özlərinə peşə seçmişdilər. Onların qoyub qaçdıqları xeyli texnika və silah-sursat hərbi qənimət olaraq götürüldü. Düşmənin saz vəziyyətdə ələ keçirilən hərbi texnikasının xeyli hissəsindən Silahlı Qüvvələrimiz döyüşlər zamanı istifadə edirdi. Həmin hərbi qənimətlərin bir qismi isə Azadlıq meydanındakı paradda nümayiş olundu. Bunların arasında müxtəlif markalı zirehli və zirehsiz avtomobillər, çoxsaylı artilleriya qurğuları, zenit-raket kompleksləri, piyadaların döyüş maşınları, tanklar və s. vardı.

Hələ Silahlı Qüvvələrimizin 100 illik yubileyi münasibətilə 2018-ci il iyunun 26-da keçirilən təntənəli hərbi paradda Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev demişdi: "Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq". Doğma xalqının, rəşadətli ordusunun gücünü bilən və bu gücü məharətlə tətbiq etməyi bacaran böyük sərkərdəmizin bu dedikləri, tarixən çox qısa müddətdən, cəmi iki il yarımdan sonra gerçəkləşdi: Zəfər paradından qəhrəman ordumuzun müxtəlif qoşun növlərinin nümayəndələri işğaldan azad edilmiş torpaqlarımızda sancdıqları döyüş bayraqları ilə keçdilər və dünya azərbaycanlılarına hədsiz qürur hissi yaşatdılar. Üç min nəfərdən artıq şəxsi heyətin iştirak etdiyi paradda Silahlı Qüvvələrimizin 150-dək hərbi texnikası, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir hərbi texnika, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerlər nümayiş olundu. Ən müasir atıcı silahlar, tank əleyhinə idarə olunan raketlər, üzərində minaatanlar quraşdırılmış zirehli idarəetmə, çevik hərəkət maşınları, piyada daşıyan zirehli maşınlar, tanklar, hava hücumundan müdafiə sistemləri, zenit-raket kompleksləri, Qələbənin əldə edilməsində çox mühüm rol oynayan pilotsuz uçuş aparatları, o cümlədən "İti qovan", "Bayraktar-TB2", "Hermes", "Quzğun", "Harop" və digərləri, özüyeriyən haubitsa və artilleriya qurğuları "TR-300 Qasırğa", "Ekstra" taktiki, "Polonez" və "LORA" kimi əməliyyat-taktiki raket sistemləri, "Mİ-17" hərbi nəqliyyat-desant, "Mİ-35" hücum helikopterləri, uzunmənzilli raketləri ilə silahlanmış "Mİ-17" helikopterləri, "MİQ-29" çoxməqsədli qırıcı təyyarələri "Su-25" hücum və hava dəstək təyyarələri paradda keçid edərək, Azərbaycanın hərbi gücünü, qüdrətini sərgilədilər.

Ali Baş Komandanın rəhbərliyi ilə Silahlı Qüvvələrimiz, qəhrəman hərbçilərimiz Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin qanını və qisasını döyüş meydanında aldı. Lakin mübarizəmiz hələ bitməyib, hələ məğlub Ermənistanda revanşizm xülyasında olanlar var. Prezident İlham Əliyev bu il Silahlı Qüvvələr Günündə hərbçilərlə görüşündə deyib: "Ermənistan dərk etməlidir ki, Azərbaycan bundan sonra da güclənəcək və bu, şübhəsizdir. O cümlədən bizim hərbi gücümüz artacaq. Müharibədən sonra artıq müvafiq göstərişlər verildi, yeni kontraktlar imzalandı, yeni silahların, texnikanın, müasir texnologiyaların əsasında texnikanın alınması prosesi başlamışdır. Silahlı Qüvvələrimizin struktur islahatları təsdiqləndi. Deyə bilərəm ki, Silahlı Qüvvələrimizin, Ordumuzun say tərkibi artırılacaq. Biz İkinci Qarabağ müharibəsinin nəticələrini və gedişatını düzgün təhlil edərək, əlbəttə ki, öz hərbi gücümüzü artıracağıq...".

Bu ilin noyabrında Ermənistanla sərhəddə Laçın və Kəlbəcər istiqamətində baş verən bir günlük döyüşlər Azərbaycan Ordusunun daim ayıq-sayıq olmasının vacibliyini bir daha göstərdi. Yenə şəhidlər verdik, amma Ermənistanın mənəvi tənəzzüldə olan yarımcan ordusu daha böyük itkilərlə geri çəkilməyə məcbur oldu. Bu qısamüddətli qarşıdurma erməni hərbçilərini fərariliyə və yaşamaq üçün əsir düşməyə vərdiş etdiyini yenidən təsdiqlədi. Ümumiyyətlə, obyektivliyə meyilli bəzi erməni hərbi ekspertlər Ermənistan ordusunun böhrandan çıxmaq iqtidarında olmadığını, Azərbaycanla rəqabətin faydasızlığını konkret dəlillərlə şərh edirlər. Bu zaman ölkəmizin texniki, iqtisadi, demoqrafik üstünlüyünün və ordumuzun peşəkarlıq səviyyəsinin hələ uzun müddət, bəlkə də həmişəlik yenilməz olduğu da vurğulanır.

Dövlətimizin başçısının yorulmaz səyləri nəticəsində ölkəmizin müdafiə potensialı daim artır. Əgər 2003-2004-cü illərdə müdafiə xərclərinə dövlət büdcəsindən cəmi 0,9 milyard manat ayrılırdısa, 2020-ci ildə bu göstərici 3,9 milyard manata çatdırıldı. Gələn ilin dövlət büdcəsindən isə müdafiə və milli təhlükəsizlik məqsədlərinə daha çox vəsait yönəldiləcəkdir. Beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünyanın 40 ən qüdrətli və döyüş qabiliyyətli ordusu sırasına daxildir. Bu yaxınlarda mətbuata verdiyi açıqlamada Müdafiə sənayesi naziri, Azərbaycanın Milli Qəhrəmanı Mədət Quliyev dövlətimizin başçısının tapşırığı əsasında, hərbi təyinatlı məhsullar istehsalının gələcək illərin tələbatları nəzərə alınmaqla planlaşdırıldığını bildirib. Bu, o deməkdir ki, Türkiyə, Rusiya, İsrail kimi dünyanın aparıcı silah istehsalçıları ilə sıx əməkdaşlıq çərçivəsində ölkəmiz özünün müdafiə sənayesi potensialını daha da möhkəmləndirir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəfələrlə bəyan etdiyi kimi, "dəmir yumruq" yerindədir və ölkəmizə qarşı hər hansı təhdidin qarşısı dərhal alınacaqdır.

**Möhtərəm RƏCƏBOVA,**
**"Respublika".**